

Prezident İlham Əliyev bəzi sənədlərdə səhiyyə qurumları ilə bağlı dəyişikliklər etdi

3



«Əhalinin sağlamlığının qorunması haqqında» Qanuna dəyişiklik edildi

4



Prezident İlham Əliyev Şuşada xəstəxananın tikintisi ilə tanış olub

2


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 13-14 (773) 31 iyul 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezident İlham Əliyev: «COVID-19-la mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu»




2

## Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısında dəyişiklik edilib



5

## Uşaqların yüksək keyfiyyətli tibbi xidmətlərlə təmin edilməsi istiqamətində mühüm addımlar atılır



6

## Teymur Musayev: «Məzun günü» gələcək həkimlərin yaddaşında gözəl bir tarix kimi qalacaq




7






### Aforizm

*Bacaracağınıza inandınızsa, deməli, məqsədə doğru yolu yarı etdiniz.*

*Teador Ruzvelt*

# Prezident İlham Əliyev: «COVID-19-la mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu»

**Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun «Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli» mövzusunda nazirlər görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri açıq elan edən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün iştirakçılarını salamlayıb, bildirib ki, Kampala Sammitinə hazırlıq çərçivəsində bu görüş 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısından sonra əldə edilən nailiyyətləri nəzərdən keçirməyə, müxtəlif çağırışlara birgə yanaşmanı və baxışı ifadə etməyə imkan yaradır.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev çıxış edib.

Dövlət başçısı öz çıxışında səhiyyə ilə bağlı məsələlərə də toxunub.

Qonaqları salamlayan Prezident İlham Əliyev xatırladıb ki, Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürüb və yenidən yekdil qərarla sədrliyimiz daha bir il uzadılıb. Bu dövrdə Azərbaycan «Bandunq prinsipləri» əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qoruyub: «Beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misli görünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu.




2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən «peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir.

Hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir. Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq.

Beynəlxalq ictimaiyyətin məsuliyyətli və fəal üzvü olaraq biz həmçinin postpandemiya dövrü haqqında düşünməli olduq. Beləliklə, Azərbaycan bu ilin mart ayında Bakıda Qoşulmama Hərəkatının pandemiyadan sonrakı bərpaya həsr olunmuş növbəti sammitini uğurla təşkil etdi. Biz burada qlobal əhəmiyyətə malik məsələləri müzakirə etdik və pandemiyadan sonrakı dövrdə daha yaxşı bərpa üzrə fikirlərimizi bölüşdük.

Ehtiyacı olan ölkələrə yardım göstərmək Azərbaycanın sədrliyinin digər prioriteti idi. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verib. Biz həmçinin beş ölkəni peyvəndlə təmin etmişik».

Dövlət başçısı multilateralizm, iqlim dəyişikliyi, su qıtlığı, ərzaq təhlükəsizliyi, məcburi miqrasiya, mədəniyyətlərarası və dinlərarası dialoq, islamofobiya və ksenofobiya halları kimi məsələlərə də toxunub. Eləcə də Vətən müharibəsində tarixi Qələbəmizdən, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi urbisid, kultursid və ekosiddən, minalarla çirklənmədən danışıb. Bildirib ki, Azərbaycan humanitar minatəmizləmə üzrə xüsusi milli Dayanıqlı İnkişaf Məqsədi müəyyənləşdirib. Bundan başqa, Azərbaycan qlobal miqyasda humanitar minatəmizləmə səylərini dəstəkləyir və minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təklifini irəli sürmüşdür. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının üzv dövlətlərini səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifini dəstəkləməyə çağırıb.

Dövlət başçısı Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinə həmrəyliklərinə və Azərbaycana sədrliyini uğurla həyata keçirmək üçün göstərdikləri dəstəyə görə təşəkkür edib.

Nazirlər görüşü işini müzakirələrlə davam etdirib.

# Prezident İlham Əliyev Şuşada xəstəxananın tikintisi ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 90 çarpayılıq Şuşa Şəhər Xəstəxanasının binasında tikinti işlərinin gedişi ilə tanış olub.**

AZƏRTAC-ın bildirdiyinə görə, dövlət başçısına görülən işlər barədə məlumat verilib.

Şuşa Şəhər Xəstəxanasının təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Dövlət başçısına məlumat verilib ki, 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana kompleksi 4-ü dördmərtəbəli, 2-si üçmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət üçün və sığınacaq kimi, zərurət yarandıqda hərbi hospital kimi istifadə olunacaq.

Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək.

Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar — 1,5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsimli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək.

Şuşa Şəhər Xəstəxanasının ərazisində Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin yerli şöbəsi, yoluxucu xəstəliklər və hemodializ korpusları da inşa olunacaq.



Əhalinin sağlamlığı daim dövlətimizin başçısının diqqət mərkəzindədir. O cümlədən işğaldan azad edilən ərazilərdə də tibb və səhiyyə xidmətlərinin təşkili üçün qısa bir müddətdə genişmiqyaslı işlər həyata keçirilir. Şuşa Şəhər Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir. Bu həm də onu göstərir ki, azad edilmiş digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.

# Prezident İlham Əliyev bəzi sənədlərdə səhiyyə qurumları ilə bağlı dəyişikliklər etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün **«İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli, «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə» 2018-ci il 18 iyul tarixli 213 nömrəli, «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında» 2019-cu il 29 yanvar tarixli 500 nömrəli, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» 2019-cu il 31 yanvar tarixli 502 nömrəli, «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə»nin və «e-sosial» internet portalı haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə» 2019-cu il 15 aprel tarixli 634 nömrəli və «Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası»nın təsdiq edilməsi haqqında»** 2020-ci il 27 fevral tarixli 946 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman verib.

Sənəddə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi rəhbər tutularaq qərara alınıb ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi»nin 3.1.9-1-ci, 3.1.24-1-3.1.24-7-ci yarımbəndləri ləğv edilsin.

Həmçinin «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli Fərmanının 2.6-cı bəndində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz olunub.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda onun həyata keçirilməsi üzrə Tədbirlər Planının bir sıra yarımbəndlərinin (7.2.16, 7.3.1.11, 7.3.2.11, 7.3.3.11, 7.3.4.11, 7.3.5.12, 7.3.6.12, 7.3.7.13, 7.3.8.12, 7.3.9.13, 7.3.10.13, 7.3.11.12, 7.3.12.13, 7.3.13.12, 7.3.14.13, 7.3.15.13, 7.3.16.13, 7.3.17.13, 7.3.18.13, 7.3.19.13, 7.3.20.11, 7.3.21.12, 7.3.22.13, 7.3.23.13, 7.3.24.13, 7.3.25.14, 7.3.26.11, 7.3.27.9, 7.3.28.13, 7.3.29.12, 7.3.30.12, 7.3.31.13, 7.3.32.14, 7.3.33.13, 7.3.34.13, 7.3.35.14, 7.3.36.13, 7.3.37.12, 7.3.38.14, 7.3.39.13, 7.3.40.13, 7.3.41.12, 7.3.42.13, 7.3.43.13, 7.3.44.13, 7.3.45.14, 7.3.46.14, 7.3.47.13, 7.3.48.12, 7.3.49.13, 7.3.50.14, 7.3.51.12, 7.3.52.14, 7.3.53.13, 7.3.54.11, 7.3.55.12 və 7.3.56.12) icraçısı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əvəzinə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi olaraq müəyyənləşdirilib.

Dövlət başçısının «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» 2019-cu il 31 yanvar tarixli Fərmanının 6.13-cü bəndində «tabeliyindəki Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi qismində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə»yə «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» məzmununda 4.1.16-2-ci yarımbənd, eləcə də dövlət başçısının 2020-ci il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş «Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası»nın 2-ci hissəsinə eyni məzmunda 2.1.8-1-ci yarımbənd əlavə olunub. Həmin Qaydanın 2.18.2-ci və 2.23.2-ci yarımbəndlərində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün **«Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası»nın təsdiq edilməsi haqqında» 2012-ci il 8 may tarixli 626 nömrəli, «Uşaqların icbari dispanserizasiyası haqqında» Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə» 2013-cü il 10 aprel tarixli 861 nömrəli, «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» 2016-cı il 15 fevral tarixli 795 nömrəli, «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli, «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın təsdiq edilməsi barədə» 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nın təsdiq edilməsi barədə»** 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

Sənədə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi rəhbər tutularaq qərara alınıb ki, dövlət başçısının 2012-ci il 8 may tarixli Fərmanı ilə təsdiq edilmiş «Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası»nın 1.3-cü və 2.7-1-ci bəndlərində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz olunsun.

Eyni zamanda, «Uşaqların icbari dispanserizasiyası haqqında» Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 aprel tarixli Fərmanının 4.4-cü və 4.5-ci bəndlərində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Yeni Fərmanla «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli Fərmanında bir sıra dəyişikliklər olunub. Belə ki, sənədin 4-cü hissəsi üzrə 4.46-1-ci bənd ləğv edilib, 4.6-1-ci bəndin isə aşağıdakı redaksiyada verilməsi qərara alınıb:

«4.6-1. həmin Məcəllənin 162.3, 562.1, 562.2, 562-1.1 və 562-1.2-ci (birinci halda) maddələrində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur».

Fərmanın 5-ci hissəsində 5.6-3-cü bənddə «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə, 5.6-4-cü bənddə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib. 5.57-ci bənddən «icbari tibbi sığortaya münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri çıxarılıb.

Dövlət başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi»nin «Tədbirlər planı» hissəsinin 3.2.1-ci yarımbəndinin «Əsas icraçı» sütununda «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Səhiyyə Nazirliyi» sözləri ilə, «Digər icraçılar» sütununda «Səhiyyə Nazirliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz olunub.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş «İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»nda 18-ci hissənin birinci abzasında «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin» sözləri ilə, 18.0-cı bənddə «469.1-ci (icbari tibbi sığortaya münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - İdarə Heyətinin sədri, sədrin müavinləri, İdarə Heyətinin üzvləri» sözləri «nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - icraçı direktor, onun müavinləri» sözləri ilə əvəz edilib.

Dəyişikliklər olunan daha bir sənəd Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı»dır. Bu sənədin 3-cü hissəsində «163-cü, 562-1.1-ci maddələrində, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələri istisna olmaqla, digər tibb müəssisələrinə münasibətdə 162.3-cü və 562.1-ci» sözləri «162.3-cü, 163-cü, 562.1-ci və 562-1.1-ci» sözləri ilə əvəz edilib. 3-1-ci hissə ləğv olunub.

Daha bir analoji sənəd Azərbaycan Respublikası Prezidentinin **«Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 1998-ci il 13 mart tarixli 684 nömrəli, «Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 6 mart tarixli 297 nömrəli, «Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 17 iyun tarixli 353 nömrəli, «Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 15 iyul tarixli 367 nömrəli, «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2001-ci il 19 iyul tarixli 540 nömrəli, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2002-ci il 6 may tarixli 697 nömrəli və «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2004-cü il 12 fevral tarixli 32 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərmandır.**

«Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» dövlət başçısının 1998-ci il 13 mart tarixli Fərmanının 2.4-1-ci bəndində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

«Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli Fərmanının 2-ci hissəsində 2.12-2-ci bəndə «194.1-ci» sözlərindən əvvəl «166.3-cü (birinci və ikinci hallarda), 166.4-cü (birinci və üçüncü hallarda),» sözləri əlavə olunub. 2.13-cü və 2.15-ci bəndlərdə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib. 2.14-cü bənd ləğv olunub.

*(Davamı 4-cü səhifədə)*

# «Əhalinin sağlamlığının qorunması haqqında» Qanuna dəyişiklik edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.

Sənədə əsasən, Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır ki, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin səkkizinci hissəsində «orqanları» sözü «orqanının müəyyən etdiyi orqan (qurum)» sözləri ilə, «edirlər» sözü «edir» sözü ilə əvəz olunsun.

Bununla əlaqədar olaraq dövlət başçısı «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 896-VIQD nömrəli Qanunun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 1997-ci il 25 iyul tarixli 622 nömrəli, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 2003-cü il 5 iyun tarixli 878 nömrəli, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında» 2013-cü il 25 noyabr tarixli 38 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman verib.

Həmin sənəddə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndləri rəhbər tutularaq, yeni qəbul edilmiş Qanunun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə müəyyən olunub ki, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin səkkizinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

Qanunun 12-ci maddəsinin səkkizinci hissəsində «orqan (qurum)» dedikdə Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur.

Bu Fərmanla həmçinin «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının 2-ci hissəsində dördüncü abzasda «və beşinci hissələrində» sözləri «beşinci hissələrində, altıncı hissəsinin ikinci cümləsində və həmin maddənin «Qeyd» hissəsinin 2-ci bəndində» sözləri ilə, beşinci abzasda «birinci və dördüncü hissələrində» sözləri «dördüncü hissəsində» sözləri ilə əvəz edilib.

Doqquzuncu abzasdan «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər tibb müəssisələrinə münasibətdə isə» sözləri çıxarılıb.

Onuncu, on birinci və on ikinci (hər iki halda) abzaslarda «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə, on üçüncü abzasda «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki dövlət tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Sənədə əlavə olunan on dördüncü abzasda deyilir ki, «həmin Qanunun 12-ci maddəsinin səkkizinci hissəsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur».

Bu Fərmanla «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 5 iyun tarixli 878 nömrəli Fərmanının 2-ci hissəsi, həmçinin «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 790-IVQD nömrəli Qanununun tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 25 noyabr tarixli 38 nömrəli Fərmanının 3-cü hissəsi ləğv olunub.

Sənədə əsasən Nazirlər Kabinetinə tapşırılıb ki, «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunun 56-cı maddəsinin altıncı hissəsinə və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin qurumun hesabına köçürülən vəsaitdən istifadə qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin, eləcə də həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

# Prezident İlham Əliyev bəzi sənədlərdə səhiyyə qurumları ilə bağlı dəyişikliklər etdi

*(Əvvəli 3-cü səhifədə)*

«Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» dövlət başçısının 2000-ci il 15 iyul tarixli Fərmanının 2-ci hissəsində 2.4-cü bənddə «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəzlənib. Həmin hissənin 2.5-ci və 2.6-cı bəndlərində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz olunub.

«Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 iyun tarixli Fərmanının 2.5-ci bəndində, «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli Fərmanının 2.7-ci bəndində, «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli Fərmanının 2.6-cı, 2.10-cu (hər iki halda) və 2.11-ci bəndlərində, eləcə də «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli Fərmanının 2.3-cü bəndində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Dövlət başçısının qəbul etdiyi daha bir sənəd **«Azərbaycan Respublikası Prezidentinin «Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2005-ci il 18 iyul tarixli 263 nömrəli, «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2005-ci il 9 avqust tarixli 274 nömrəli, «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə» 2006-cı il 25 may tarixli 413 nömrəli, «Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2007-ci il 3 iyul tarixli 606 nömrəli, «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2009-cu il 27 avqust tarixli 147 nömrəli, «Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» 2010-cu il 4 iyun tarixli 276 nömrəli, «Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə» 2011-ci il 15 fevral tarixli 382 nömrəli, «İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə» 2011-ci il 20 aprel tarixli 414 nömrəli və «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə» 2012-ci il 9 aprel tarixli 606 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman** adlanır.

Bu sənədə əsasən, «Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli Fərmanının 2.3-cü bəndindən «və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri çıxarılıb.

«Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli Fərmanının 2.3-cü və 2.5-ci bəndlərində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»nin 8.13-3-cü bəndindən «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələri istisna olmaqla, digər» sözləri çıxarılıb.

«Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli Fərmanının 2.6-cı bəndində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

«Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli Fərmanının 2-ci hissəsinin 2.4-cü bəndində «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözlərinə dəyişdirilib. 2.6-cı, 2.11-ci və 2.13-cü bəndlərdə isə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə»nin 11.6-cı bəndinin birinci abzasında «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz olunub.

«Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli Fərmanının 1.10-cu bəndində, «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 aprel tarixli Fərmanının 3.3-cü bəndində «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə əvəz edilib.

Həmçinin, «İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli Fərmanının 1.4-cü bəndinə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözlərindən sonra «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri əlavə edilib.

### Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısında dəyişiklik edilib



Baş nazir Əli Əsədov «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı»nda dəyişiklik edilməsi haqqında» Qərar imzalayıb.

AZƏRTAC xəbər verir ki, Qərara əsasən, həmin siyahıya Səhiyyənin Təminat Mərkəzi publik hüquqi şəxsi daxil edilib.

**Milli Məclisin növbədənkənar sessiyasının iyul ayında keçirilən növbəti plenar iclaslarında səhiyyə ilə bağlı məsələlərə baxılıb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirildiyinə görə, Sahibə Qafarovanın sədrliyi ilə keçən ilk iclasda «Tibbi sığorta haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verən Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov layihənin ikinci oxunuşundan sonra komitəyə heç bir irad və təklif daxil olmadığını deyib. Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra ikinci oxunuşda olan 11 qanun layihəsinə baxılıb. Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Dərman vasitələri haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.

## Milli Məclisin növbəti plenar iclasları keçirilib

Deputatlar Rəşad Mahmudov, Fəzail Ağamalı, Vahid Əhmədov, Hikmət Məmmədov məsələ barədə öz



fikirlərini və bəzi qeydlərini açıqladılar.

Komitə sədri Əhliman Əmiraslanov, səhiyyə nazirinin müavini Rasim İsmayılov qaldırılan məsələlərə aydınlıq gətiriblər. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclasında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Dərman vasitələri haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. O, layihənin ikinci oxunuşda qəbulundan sonra məsələ ilə əlaqədar heç bir irad və təklifin daxil olmadığını bildirib.

Sənəd ətrafında müzakirələrdə deputat Rəşad Mahmudov bəzi məqamlarla bağlı öz fikir və qeydlərini səsləndirib. Komitə sədri Əhliman Əmiraslanov qaldırılan məsələlərə aydınlıq gətirib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib. Sonda Milli Məclisin sədri parlamentin növbədənkənar sessiyasını bağlı elan edib.

## Parlamentin Səhiyyə komitəsi «Dərman vasitələri haqqında» Qanuna dəyişiklikləri müzakirə edib

**Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclasında ikinci oxunuşda təqdim olunan «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin bildirdiyinə görə, komitə sədri Əhliman Əmiraslanov qanun layihəsinin əhəmiyyətini qeyd edərək, sənədin birinci oxunuşda komitədə və plenar iclasda geniş müzakirə olunduğunu, deputatlar tərəfindən bir çox qeyd və təkliflərin verildiyini söyləyib. Komitə sədri dərman preparatlarının dövlət qeydiyyatı prosedurunun optimallaşdırılması, ölkə ərazisinə idxal edilən keyfiyyətli dərman vasitələrinin sayının artırılması, dərman qıtlığının aradan qaldırılması, dərman vasitələrinin ölkəmizdə istehsal olunması məsələləri ilə bağlı fikirlərini açıqlayıb. Bildirib ki, bu sahədə əsas problemlərdən biri dərman vasitələrinin Azərbaycanda istehsal olunmamasıdır. Ələt Azad İqtisadi Zonasında 4 zavod tikilir ki, bunların arasında dərman vasitələri istehsal edən müəssisələrin olması çox müsbət haldır.

AZƏRTAC-ın yaydığı məlumata görə, reseptlərin yazılmasında sui-istifadə hallarına yol verildiyini söyləyən komitə sədri deyib: «Xəstəyə təyin olunan dərmanın molekul formulu mütləq qeyd olunmalıdır». Dərmanlara gömrükdə məhdudiyyət qoyulması məsələsinə də münasibət bildirən Əhliman Əmiraslanov bu sahədə ciddi problemlərin olduğunu bildirib. Vurğulayıb ki, insanlar xaricdən bu dərmanları satmaq üçün deyil, öz müalicələri üçün gətirirlər. Bu sahədə boşluqlar aradan qaldırılmalıdır.

Təqdim olunan qanun layihəsində dərman vasitələrinin dövriyyəsinə nəzarəti təmin etmək məqsədilə Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron təqib və izləmə sisteminin tətbiq edilməsi nəzərdə tutulub. Bu sistem istehsal və idxal olunan malların dövriyyəsinə, topdan və pərakəndə satışına nəzarəti həyata keçirən və bununla bağlı məlumatları qeydə alan informasiya ehtiyatı olacaq. Həmçinin dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqi nəzərdə tutulub. Sənədə əsasən, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin tənzimlənən qiymətlərdən yuxarı qiymətlərlə satılması qadağan olunur.



Layihədə həmçinin bioloji aktiv qida əlavələri ilə əlaqədar tənzimləmələr təkmilləşdirilir.

Bununla yanaşı, tibb vasitələrinin idxalı, sertifikatlaşdırılması, reyestrinin aparılmasına dair tənzimləmələr, dərman vasitələrinin idxalına icazə verilməsi proseduru, dərman vasitələrinə reseptlərin yazılması qaydası müəyyən edilir.

Məsələ ilə bağlı çıxış edən komitə sədrinin müavini Rəşad Mahmudov qeyd edib ki, qüvvədə olan Qanuna əsasən, müxtəlif dərman vasitələrinin eyni ticarət adı altında dövlət qeydiyyatına alınmasına yol verilmir. «Dərman vasitələri haqqında» Qanuna dəyişikliklə bu tələb yumşaldılır. Səhiyyə komitəsinin sədr müavini COVID-19 pandemiyası dövründə ölkədə qeydiyyatı olmayan dərman vasitələri ilə bağlı ciddi problemlər yaşandığını söyləyib. Qanun layihəsindəki bəzi məqamlara aydınlıq gətirən Rəşad Mahmudov qeyd edib ki, sənəddə göstərildiyi kimi, reseptlərin ancaq elektron formada verilməsi əslində sui-istifadə hallarına gətirib çıxara bilər. «Sui-istifadə hallarının qarşısının alınması üçün reseptlərin elektron və ya kağız formada verilməsi daha məqsədəuyğun olardı», — deyə deputat qeyd edib.

Dərman təhlükəsizliyi məsələsindən də danışan R.Mahmudov deyib: «Elə etmək lazımdır ki, istehsalçı və istehlakçı arasında münasibətlər pozulmasın».

Komitə üzvləri Sədaqət Vəliyeva, Kamilə Əliyeva, Kamaləddin Qafarov, deputat Etibar Əliyev təklif olunan dəyişikliklərin günün tələbinə uyğun olduğunu, sənədin dərman preparatlarına əlçatanlığın təmin edilməsinə, tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına töhfə verəcəyini söyləyiblər. Millət vəkilləri qanun layihəsi ilə bağlı bəzi qeyd və təklifləri də səsləndiriblər.

İclasda parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, tədbirdə iştirak edən səhiyyə nazirinin müavini Rasim İsmayılov müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətiriblər, deputatların verdiyi sualları ətraflı cavablandırıblar.

Səhiyyə nazirinin müavini Rasim İsmayılov deyib ki, «Dərman vasitələri haqqında» Qanuna dəyişikliklərdə əsas məqsəd dərman vasitələrinin çeşidinin artırılması və əlçatanlığın təmin olunmasıdır. O bildirib ki, Səhiyyə Nazirliyinin sifarişi əsasında Tarif Şurası dərman vasitələrinin qiymətlərinə yenidən baxacaq. Ölkədə dərman vasitələrinin qiymətlərinin tənzimlənməsindən danışan nazir müavini Qanuna dəyişikliklərin vətəndaşlar üçün əhəmiyyətli olduğunu bildirib. Onun sözlərinə görə, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi hər ölkəyə görə fərqlənir. «Fərq ondan ibarətdir ki, dərmanların satışı alıcının seçimi əsasında deyil, həkimlərin və ya əczaçının tövsiyəsi əsasında həyata keçirilir», — deyə Rasim İsmayılov vurğulayıb. Səhiyyə nazirinin müavininin sözlərinə görə, indiyədək qeydiyyatdan keçməmiş dərman vasitələrinin qiymətləri ilə bağlı dəyişikliklər effektli olmayacaq.

Nazir müavini bildirib ki, Analitik Ekspertiza Mərkəzinin yenidən formalaşması, yəni rəqəmsallaşmaya uyğunlaşması vacib məsələlərdəndir. Sənədlər müddətli olmadığı təqdirdə, rəqəmsallaşma bu kontekstdə çox əhəmiyyət kəsb edir.

Dərman vasitələrinin çeşidinin artırılmasının qarşıya qoyulan əsas vəzifələrdən biri olduğunu bildirən Rasim İsmayılovun sözlərinə görə, dərman vasitələrinin içliklərinin uyğun dillərdə yazılması idxalçıların üzərinə məsuliyyət qoyacaq.

Çıxışlarda dərman qiymətlərinin tənzimlənməsi qaydalarından, buna təsir edən amillərdən bəhs edilib. Habelə, dərman vasitələrinin çeşidlərinin genişləndirilməsi, onların keyfiyyətinin yaxşılaşdırılması məsələlərinə toxunulub, tibb sahəsində maarifçilik işinin vacibliyindən danışılıb, səhiyyə sahəsində həyata keçirilən islahatların əhəmiyyəti qeyd olunub.

Müzakirələrin yekununda «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

# Uşaqların yüksək keyfiyyətli tibbi xidmətlərlə təmin edilməsi istiqamətində mühüm addımlar atılır



**Azərbaycanın Səhiyyə Nazirliyində İsraildə təşkil olunan yay düşərgəsinə yollanacaq şəkərli diabetli yeniyetmələrlə görüş keçirilib. Tədbirdə İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik də iştirak edib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayev İsrail nümayəndələri ilə davamlı görüşlərin ölkələrimiz arasında əlaqələrin və dostluq münasibətlərinin getdikcə möhkəmlənməsinə töhfələr verəcəyini diqqətə çatdırıb. Nazir şəkərli diabetdən əziyyət çəkən uşaq və yeniyetmələr üçün İsraildə yay düşərgəsinin təşkil olunmasını humanizm prinsiplərinə əsaslanan bir addım kimi yüksək qiymətləndirib. Görüş zamanı həmçinin Prezident İlham Əliyevin uşaqların və yeniyetmələrin sağlamlığının qorunmasına hər zaman xüsusi diqqət və qayğı ilə yanaşdığı da vurğulanıb.

Bildirilib ki, bu qayğının nəticəsi olaraq son illərdə uşaqların yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi istiqamətində mühüm addımlar atılır.

Nazir həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əhalinin, xüsusilə uşaq və yeniyetmələrin sağlamlığı ilə bağlı məsələlərə daim önəm verdiyini bildirib: «Azərbaycan dövlətinin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biri də uşaqların və yeniyetmələrin sağlamlığının qorunması, o cümlədən şəkərli diabetdən əziyyət çəkənlərin müalicə və reabilitasiyasına dəstəyin göstərilməsidir».

Sonda səhiyyə naziri gələcəkdə də uşaq və yeniyetmələr üçün nəzərdə tutulan belə tədbirlərin qarşılıqlı şəkildə ardıcıl olaraq hər iki dövlətdə təşkil olunmasının zəruriliyini diqqətə çatdırıb.

Səfir Corc Dik Azərbaycanda uşaqlara dövlət tərəfindən göstərilən qayğını yüksək qiymətləndirib. Qeyd edilib ki, beynəlxalq müstəvidə həyata keçirilən həmin layihədə iştirak etmək üçün ilk olaraq azərbaycanlı uşaq və yeniyetmələr seçilib.

Səmimi qəbula görə minnətdarlığını bildirən yeniyetmələr dövlətin qayğısını daim hiss etdiklərini vurğulayıblar. Bildirilib ki, yay düşərgəsi onların səhhətlərinin bərpasına köməklə yanaşı, dünyagörüşlərinin inkişafında vacib rol oynayacaq, habelə xoş xatirə kimi yaddaşlarında qalacaqdır.

**Səhiyyə Nazirliyində «Pfizer» şirkətinin Qafqaz, Mərkəzi Asiya və Monqolustan üzrə rəhbəri Dmitri Kozenkovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

# Səhiyyə Nazirliyi ilə «Pfizer» şirkəti arasında əməkdaşlıq məsələləri müzakirə edilib



Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, nazir Teymur Musayev qeyd edib ki, koronavirus pandemiyasının ən sərt vaxtlarında ölkəmizdə 4 tanınmış vaksin şirkətinin peyvəndləri tətbiq olunub. Bunlardan biri də məhz «Pfizer - BioNTech» şirkətinin istehsal etdiyi peyvənd olub.

Vurğulanıb ki, Ümumdünya Səhiyyə Təşkilatı «Pfizer - BioNTech» vaksinini təcili istifadə üçün təsdiqlənən vasitələr reyestrinə daxil edib. Teymur Musayev Səhiyyə Nazirliyinin ölkə əhalisinin sağlamlığı üçün əhəmiyyətli olan digər vaksinlərin də Azərbaycanda tətbiqi məsələlərinin müzakirəsinə hazır olduğunu bildirib.

Öz növbəsində «Pfizer» şirkətinin Qafqaz, Mərkəzi Asiya və Monqolustan üzrə rəhbəri Dmitri Kozenkov bildirib ki, Azərbaycan COVID-19 pandemiyasının başladığı ilk günlərdən onunla mübarizədə özünəməxsus yol seçən ölkələrdəndir. Belə ki, Azərbaycan hökuməti koronavirus infeksiyasının yayılmasının qarşısını almaq, onun iqtisadiyyata və insanların sosial vəziyyətinə vurduğu zərəri qarşılamaq üçün vaxtında və uğurlu tədbirlər hazırlayaraq həyata keçirib.

Görüşdə «Pfizer» şirkəti ilə Səhiyyə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb və elmi-tibbi aspektlər müzakirə edilib.

**Azərbaycanda Amerika Ticarət Palatası («AmCham Azərbaycan») ənənəvi işgüzar lanç təşkil edib.**

# Səhiyyə sektorunda dövlət-özəl tərəfdaşlığının inkişafı üçün geniş potensial var

İşgüzar dairələrin və üzv şirkətlərin rəhbər şəxslərinin iştirak etdiyi görüşün xüsusi qonağı Azərbaycanın səhiyyə naziri Teymur Musayev olub.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, «AmCham Azərbaycan»ın prezidenti Nərgiz Nəsrullayeva-Müdüroğlu Səhiyyə Nazirliyinin palata ilə daimi qarşılıqlı fəaliyyətini və dialoqa hazır olmasını yüksək qiymətləndirib, bildirib ki, Azərbaycanda səmərəli dövlət-özəl tərəfdaşlığı, o cümlədən səhiyyə sektorunda əlverişli biznes mühiti yaradılıb.

Vurğulanıb ki, özəl tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan subyektlərin sayında artım müşahidə olunur: «İnanırıq ki, Səhiyyə Nazirliyi ilə qarşılıqlı faydalı əməkdaşlığımız Azərbaycanda biznes mühitini daha da yaxşılaşdıracaq».

«AmCham Azərbaycan»ın icraçı direktoru Gülnarə Aslanbəyli Azərbaycanda xarici və yerli biznesin maraqlarının dəstəklənməsi və təşviqi istiqamətində palatanın davamlı fəaliyyətini qeyd edib. O, bu sahədə dövlət qurumları ilə aparılan səmərəli dialoqun və uğurlu əməkdaşlığın əhəmiyyətini vurğulayıb.






Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev qeyd edib ki, son illər Azərbaycan ictimai səhiyyəsində müasir prinsiplərə əsaslanaraq, innovativ texnoloji nailiyyətlər və mütərəqqi menecment resursları tətbiq edilməklə, genişmiqyaslı islahatlar aparılır: «Uğurlu səhiyyə islahatları üç əsas prinsip üzərində qurulub. Birincisi, insan kapitalının inkişafı, ikincisi, bu sahədə bütün fundamental dəyişikliklərin əsas amili - səhiyyənin rəqəmsallaşması, üçüncüsü, səhiyyə sisteminin yeni iqtisadiyyatı və səhiyyənin maliyyələşdirilməsidir».

Nazir bildirib ki, dövlət xidmətlərində əlçatanlıq prinsiplərinin artırılması, insan amilinin gücləndirilməsi, «vətəndaş - məmur» ünsiyyətinin minimuma endirilməsi məqsədilə ölkənin səhiyyə sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə geniş rəqəmsal səhiyyə platformasına keçid reallaşdırılıb.

Teymur Musayev milli səhiyyədə müasir düşüncəli və beynəlxalq təcrübəyə malik tibbi kadr potensialının formalaşdırılması, bu sahədə uğurlu mübadilələrin aparılması, tibb təhsili və elmində inklüziv inkişafa nail olunması istiqamətində məqsədyönlü və davamlı layihələrin icra olunduğunu qeyd edib, həmçinin ölkəmizdə səhiyyə sektorunda dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi üçün geniş potensialın mövcudluğunu vurğulayıb. Azərbaycanda səhiyyə sektoruna özəl investisiyaların cəlb olunmasını xatırladan nazir, nəticə etibarilə, göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətinin artırılması məqsədilə dövlət-özəl sektor tərəfdaşlığı sahəsində mühüm işlərin görülməsini diqqətə çatdırıb: «Özəl sektorun səhiyyədə iştirak payının artırılması, xidmətin səmərəliliyinin optimallaşdırılması, informasiya texnologiyalarına çıxış imkanlarının genişləndirilməsi və innovativ layihələrin birgə maliyyələşdirilməsi təşviq edilməlidir».

İşgüzar lanç çərçivəsində Ticarət Palatasının üzvləri təqdimatla çıxış ediblər. Görüşdə fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Teymur Musayev: «Məzun günü» gələcək həkimlərin yaddaşında gözəl bir tarix kimi qalacaq

**Azərbaycan Tibb Universitetinin (ATU) son kurs tələbələrinin «Məzun günü» Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında təntənəli şəkildə qeyd olunub.**

Səhiyyə Nazirliyinin və ATU-nun rəhbərliyinin, tibb ictimaiyyəti nümayəndələrinin, universitetin əməkdaşlarının, məzunlarının, onların valideynlərinin və digər qonaqların iştirak etdiyi tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib.

Toplantıda təbrik nitqi ilə çıxış edən səhiyyə naziri Teymur Musayev ATU-nun məmnunluqla qatıldığı növbəti «Məzun günü»ndə hər kəsi salamlayıb, təbrik edib, bu günün gələcəyin həkimlərinin yaddaşında gözəl bir tarix kimi qalacağını söyləyib.

«Məzun günü»nü insanın öyrənmək səyahətində mühüm mərhələ adlandıran nazir bunun arxasında gərgin zəhmət, yuxusuz gecələr və təhsilə olan sonsuz həvəs dayandığını deyib: «Qazandığınız bilikləri peşə həyatınızda davamlı artıracağınıza, öyrənmək həvəsinizin hər zaman sizinlə olacağına inanıram».

Teymur Musayev 1993-cü ildə ATU-nun I Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirdiyini, öz «Məzun günü»nü, eyni hissləri və həyəcanı yaşadığını xatırlayıb: «Bugünkü Azərbaycan ictimai, siyasi, iqtisadi həyatın bütün sahələrində 90-cı illərin əvvəllərindən tamamilə fərqlənir. İndiki imkanlar, peşəkar mühit fərqlidir, hər bir vətəndaşımız dövlət dəstəyi ilə tam əhatə olunub. Bu uğurların arxasında xalqına, Vətəninə hədsiz bağlılığı olan tarixi şəxsiyyətlər dayanır».

Səhiyyə naziri bu il 100-illik yubileyləri qeyd olunan, Azərbaycan səhiyyəsinin və tibb təhsilinin, Azərbaycan Tibb Universitetinin inkişafında xüsusi yer tutan iki böyük şəxsiyyət — müasir Azərbaycanın memarı və qurucusu Ümummilli Lider Heydər Əliyev və onun ömürgün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva haqqında danışıb: «Müstəqil dövlətimizdə hər sahədə olduğu kimi, səhiyyənin və tibb təhsilinin də inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Əhalinin sağlamlığının qorunmasını ölkə siyasətində ən mühüm məsələlərdən biri hesab edən Ulu Öndər səhiyyənin tərəqqisi, maddi-texniki bazasının gücləndirilməsi, yeni tibb müəssisələrinin açılması üçün zəruri addımlar atmışdı. Vətəndaşların sağlamlığının mühafizəsində kadr potensialının rolunu yüksək qiymətləndirən Ümummilli Liderin Vətənimizə rəhbərliyi dövründə Azərbaycanda həkim kadrların və təbabət alimlərinin hazırlığı yüksək vüsət almışdı. «Təhsil millətin gələcəyidir» deyən Heydər Əliyevin təşəbbüsü ilə perspektivli gənclər SSRİ-nin qabaqcıl ali təhsil ocaqlarında oxumağa, gənc alimlər isə İttifaq səviyyəli tibb müəssisələrində elmi tədqiqatlar aparmaq üçün aspiranturа və doktoranturaya göndərilmişdi. Əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərində Azərbaycandan 50-dən az adam oxumağa gedirdisə, 80-ci illərin əvvəllərində 1000-dək Azərbaycan gənci SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə göndərilmişdi. Həmin yüksəkixtisaslı kadrların bir çoxu bu gün həm Tibb Universitetində, həm də tibb müəssisələrində çalışaraq, Azərbaycan səhiyyəsinin tərəqqisinə, həkimlərin və tibb alimlərinin yeni nəsillərinin yetişməsinə öz töhfələrini verir. ATU-nun yeni tədris korpusunun tikilməsi, ilk tədris klinikasının yaradılması da Ulu Öndərin adı ilə bağlıdır.



Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanı da Azərbaycan Tibb Universiteti ilə qırılmaz tellər bağlayırdı. Tibb İnstitutunun məzunu olan Zərifə xanım sonralar da öz doğma ali məktəbi ilə əlaqəni kəsməmişdi. Təbabət elminə və tibb təhsilinə böyük töhfələr vermiş Zərifə xanımın tələbələri, onun məktəbinin davamçıları, onun əsərləri ilə formalaşan və püxtələşən mütəxəssislər nəsli bu gün yeni həkim kadrları və təbabət alimləri hazırlığı sahəsində əzmlə çalışırlar».

Səhiyyə naziri Tibb Universitetinin öz layiqli məzunları ilə fəxr etdiyini, Azərbaycan təbabətinin qüruru olan, burada təhsil almış və dərs demiş görkəmli şəxsiyyətlərin şanlı ənənələrini yaşatdığını deyib, Azərbaycanın ilk ali məktəblərindən biri olan, ənənələri ilə tarixə söykənən ATU-nun onilliklər boyu səhiyyə ocaqları üçün yüksəkixtisaslı həkim kadrları yetişdirməsindən, bununla da əhalinin sağlamlığının qorunmasına, tibb elminin tərəqqisinə mühüm töhfələr verməsindən danışıb: «Bu gün bu qocaman tibb təhsili ocağı yeni təhsil standartlarına əsaslanaraq, müasir informasiya texnologiyalarından istifadə edərək, beynəlxalq akkreditasiyadan keçmiş tədris proqramları ilə yüksək ixtisaslı mütəxəssislər hazırlayır və onun hər buraxılışı səhiyyəmiz və təbabətimiz üçün əlamətdar hadisədir».

Azərbaycan Respublikasının dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən siyasəti, bacarıqlı rəhbərliyi, gərgin zəhməti sayəsində hər sahədə inkişaf etməsindən söz açan nazir əhalinin sağlamlığının qorunması sahəsində də böyük nailiyyətlər əldə olunduğunu söyləyib: «Səhiyyənin tərəqqisi daim diqqət mərkəzində saxlanılır. Tibb müəssisələrinin maddi-texniki bazası gücləndirilir, səhiyyənin maliyyələşməsində köklü islahatlar aparılır, rəqəmsallaşma, təminatlı keyfiyyətli tibbi xidmət istiqamətində işlər görülür.

Bütün bunlar ölkəmizdə müasir tələblərə uyğun səhiyyə sisteminin qurulmasını, yüksəkixtisaslı, müvafiq bilik və bacarıqlara sahib tibb işçilərinin olmasını tələb edir. Azərbaycan Respublikasının Birinci vitseprezidenti, Heydər Əliyev Fondunun prezidenti, özü də ixtisasca həkim olan Mehriban xanım Əliyeva da səhiyyə sahəsində çalışanlara həmişə diqqət və qayğı göstərir, tibb işçilərinin əməyini və fədakarlığını daim yüksək qiymətləndirir».

Səhiyyə naziri Teymur Musayev son illərdə Azərbaycan tibb işçilərinin qarşılaşdığı sınaqları yada salıb. Bildirib ki, Azərbaycan hökuməti səhiyyə sahəsində fövqəladə vəziyyətlərə hazır olduğunu bir daha sübut etdi. Tibb işçilərimiz də bu imtahanlardan şərəflə, üzüağ çıxdılar.

Nazir vurğulayıb ki, səhiyyəmizin yenilənməsi üçün aparılan islahatlar tibb təhsilinin qarşısında da yüksək tələblər qoyur: «Bu gün tibb kadrlarının potensialını zamanın tələbinə və səhiyyənin yeni səviyyəsinə uyğun təkmilləşdirmək məqsədilə lazımi tədbirlər görülür. ATU-nun maddi-texniki bazası yenilənir, onun təhsildə nəzəriyyə ilə praktikanın uzlaşdırılması üçün geniş imkanlar açan klinikaları fəaliyyət göstərir. Səhiyyəmizin yeni, yüksək meyarlara, müasir dövrün çağırışlarına uyğun tibb kadrlarına tələbatı baxımından, bugünkü məzunlarımızın, tələbələrimizin və rezidentlərimizin üzərinə daha böyük məsuliyyət düşür.

Əziz məzunlar, inanıram ki, siz bu məsuliyyəti düzgün dərk edəcək və gələcək fəaliyyətinizdə etimadı doğruldacaqsınız. Səhiyyəmizin sizə — Azərbaycanın sağlam gələcəyi naminə şərəfli missiyaya qoşulacaq yeni gənclərə, yaradıcı qüvvələrə ehtiyacı var. Təbabətimizin sabahkı inkişafı əhəmiyyətli dərəcədə məhz bugünkü tələbələrdən və məzunlardan asılıdır. Ona görə deyə bilərik ki, bu gün bütün səhiyyəmiz üçün əlamətdar gündür. Onun tərəqqisi naminə çalışacaq insanların sıraları genişlənir. Mən bu münasibətlə bütün səhiyyə sistemimizi təbrik edirəm».

Səhiyyə naziri həmçinin məzunların valideynlərini, ATU-nun professor-müəllim heyətini təbrik edib, yeni nəsil həkimlərin yetişdirilməsində böyük zəhmətə görə təşəkkürünü bildirib. Məzunlara arzularını çatdırıb, «Əminəm ki, siz hər bir vətəndaşımız üçün sağlam və uzunömürlü həyatın təmin edilməsində bələdçilik edən işıq olacaqsınız», — deyə onları təbrik edib.

Tədbirdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli gələcəyin həkimlərinə karyeralarında uğurlar diləyib, ATU-nun məzunu adını hər yerdə uca tutmağı arzulayıb: «Əziz məzunlar, bu gün sizin həyatınızda əlamətdar bir hadisə baş verir. Siz artıq tam sərbəst, müstəqil həyata başlayırsınız. Altı il öncə Tibb Universitetinin auditoriyalarına qədəm qoymusunuz. Bu 6 il ərzində Azərbaycan Tibb Universitetinin böyük ailəsinin üzvü olmusunuz. Sizin tələbəlik həyatınız kifayət qədər mürəkkəb və rəngarəng olub. Belə ki, oxuduğunuz dövrdə pandemiya baş verib, dərsləriniz fərqli formatda keçirilib. Bununla yanaşı, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük müharibədə 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımız azad olunub. İstər pandemiya, istər müharibə və istərsə də müharibədən sonrakı dövrlərdə tələbələrimiz xəstələrimizə, qazilərimizə tibbi yardım göstərməkdə böyük fədakarlıq nümayiş etdiriblər. Onların sırasında siz məzunların adlarını da fəxrlə çəkə bilərəm».

Professor G.Gəraybəyli qeyd edib ki, bundan sonra məzunların bir çoxu praktik fəaliyyətlə məşğul olacaq, bəziləri tibb elmində araşdırmalarını davam etdirəcək, bəziləri isə müəllimlik sənətini seçəcək: «Seçdiyiniz fəaliyyət növündən asılı olmayaraq, sizlərə müvəffəqiyyətlər və uğurlar arzulayıram. İstər ölkəmizdə, istərsə də ölkəmizdən kənarda fəaliyyət göstərdiyiniz zaman bir məzun kimi, Azərbaycan Tibb Universitetinin adını həmişə yüksək tutacağınıza əminəm».

Rektor tədbir iştirakçılarına ATU-nun fəaliyyəti, son illər tədris prosesində aparılan islahatlar, tətbiq edilən yeniliklər, yüksəkixtisaslı kadrların hazırlanması üçün görülən işlər barədə də məlumat verib.

Universitetin Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov 2023-cü il məzunlarına həkim adının verilməsi ilə əlaqədar müvafiq əmri oxuyub. Bildirib ki, bu il ATU-nun I Müalicə-profilaktika fakültəsini 393, II Müalicə-profilaktika fakültəsini 371, Stomatologiya fakültəsini 224, Əczaçılıq fakültəsini 115, İctimai səhiyyə fakültəsini 69, Hərbi tibb fakültəsini 45 — ümumilikdə 1217 nəfər bitirib. Onlardan 152 nəfəri fərqlənmə diplomuna layiq görülüb. Məzunların 389 nəfəri xarici ölkə vətəndaşlarıdır.

Sonra məzunlar Hippokrat andı içiblər. Hərbi tibb fakültəsinin məzunu Nicat Nəsiblinin oxuduğu Həkim Andını təkrarlayan məzunlar xalqımızın sağlamlığının keşiyində ləyaqətlə dayanacaqlarına söz veriblər.

Tədbirdə səhiyyə naziri Teymur Musayev və ATU-nun rektoru, professor Gəray Gəraybəyli təhsilini əla qiymətlərlə başa vuran məzunlara diplomları təqdim ediblər. Azərbaycan Tibb Universitetinin ictimai həyatında fəal iştirak edən gənclərə fəxri fərmanlar təqdim olunub.

Məzun tələbələr adından I Müalicə-profilaktika fakültəsinin məzunu, Prezident təqaüdçüsü Səbinə Feyzullayeva çıxış edib, aldıqları biliklərə, qazandıqları təcrübəyə, göstərilən diqqət və qayğıya görə məzunlar adından təşəkkür bildirib.

Bu il fakültələr üzrə məzun tələbələr arasında «Ən yaxşı müəllim» nominasiyası üzrə keçirilən sorğunun nəticələrinə əsasən, I Uşaq xəstəlikləri kafedrasının assistenti Bəyaz Babayevaya, Ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayevə, Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Oktay Mehtiyevə, Biokimya kafedrasının assistenti Hikmət Məmmədova, Əczaçılıq kimyası kafedrasının dosenti Vaqif İskəndərova, Tibbi-profilaktika kafedrasının rəisi, tibb xidməti polkovnik-leytenantı Şahin Süleymanova mükafatlar təqdim olunub.

Tədbir bədii hissə ilə davam etdirilib.

# UNICEF Azərbaycanda uşaqların sağlamlığına dair dəyirmi masa təşkil edib

**BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə ölkəmizdə uşaqların ətraf mühit amilləri ilə bağlı sağlamlığına dair vəziyyətin təhlilinə həsr olunmuş dəyirmi masa keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Haykens iqlim dəyişikliyi, bunun uşaqlara təsiri və ətraf mühit məsələlərinin təmsil etdiyi təşkilatın fəaliyyətinin prioritet sahələrindən biri olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycanın Səhiyyə Nazirliyinin dəstəyi ilə 2023-cü ilin mart-iyun aylarında bir qrup milli ekspert tərəfindən ölkəmizdə uşaqların ətraf mühit amilləri ilə bağlı sağlamlığı məsələlərinə dair çevik qiymətləndirmə aparılıb. Aparılmış qiymətləndirmənin nəticələri, o cümlədən müvafiq problemlərin potensial həlli yollarını müzakirə etmək üçün bu dəyirmi masa təşkil olunub.

Tədbirdə səhiyyə nazirinin müavini İlqar Qasımov dəyirmi masanın əhəmiyyətli mövzuya həsr edildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, səhiyyə siyasətini formalaşdıran mərkəzi icra hakimiyyəti orqanı olaraq Səhiyyə Nazirliyi vətəndaşların sağlamlığına yanaşmada praktiki mövqeyin tərəfdarı və təşviqatçısıdır. Nazir müavini əhalinin sağlamlığının qiymətləndirilməsinin ictimai səhiyyənin əsas istiqamətlərindən biri olduğunu bildirib. O, ekoloji təhlükələrin insan sağlamlığına birbaşa və dolayı təsirlərindən də bəhs edib.

Tədbirdə Azərbaycan Tibb Universitetinin Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri Şəhla Balayeva deyib ki, Azərbaycanda ekoloji problemlər səbəbindən son 5 il ərzində 13 yaşa qədər uşaqların xəstələnmə göstəricilərində artım müşahidə olunur. O vurğulayıb ki, 13 yaşa qədər uşaqlarda tənəffüs, həzm sistemi, göz, infeksion və digər xəstəliklər kimi problemlərin rastlaşma tezliyində artım qeydə alınır.

«Eyni zamanda, ekoloji patologiya səbəbindən yaranan törəmələrdə 37,5 faiz artım var. 14-17 yaş aralığı uşaqlarda tənəffüs sistemi, həzm sistemi, göz xəstəlikləri, infeksion və parazit xəstəliklər, sinir sistemi kimi problemlər ən çox rast gəlinən xəstəliklərdə ilk onluğa daxildir. Yeniyetmələr arasında xəstəliklərin artım dinamikası müşahidə olunur. Ən yüksək artım isə dəri və dərialtı xəstəliklərdə qeydə alınır. Həmin xəstəliklər əsasən ekoloji problemlərin təsiri nəticəsində yaranır», — deyə kafedra müdiri bildirib.

Ş.Balayeva qeyd edib ki, müxtəlif regionlar üzrə Şəki-Zaqatala iqtisadi rayonunda 18 yaşa qədər uşaqlarda törəmə xəstəlikləri ilk sıradadır. Sinir sistemi xəstəlikləri səbəbindən ölüm halları isə rayonlara nisbətən paytaxtda daha çoxdur.

Dəyirmi masada həmçinin Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, Azərbaycan Pediatriya Cəmiyyətinin sədri Erkin Rəhimov, ATU-nun I Daxili xəstəliklər kafedrasının dosenti, Azərbaycan Toksikoloqlar Dərnəyinin sədri İsmayıl Əfəndiyev və digərləri çıxış ediblər.

Tədbirdə aparılmış təhlillərin nəticələri (əsas ekoloji problemlər, səhiyyə sisteminin təhlili, uşaqların ətraf mühit təhlükələrinə məruz qalması, havanın çirklənməsi və s.) ilə bağlı təqdimatlar edilib və müzakirələr aparılıb.

# Dərmanlara davamlı vərəmin əsas səbəbi antibiotiklərdən istifadə qaydalarının pozulmasıdır



**Qlobal Fondun İctimai Vəkillər Şəbəkəsinin və Azərbaycan Vərəm Əleyhinə QHT Koalisiyasının birgə təşkilatçılığı və «Stop Vərəm Tərəfdaşlığı» təşkilatının dəstəyi ilə vərəmlə bağlı multisektoral görüş təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, «Azərbaycanın 2030-cu ilə qədər Vərəmə son qoymaqla bağlı əsaslı beynəlxalq öhdəlikləri genişləndirmək təşəbbüsü: gündəlikdə Birləşmiş Millətlər Təşkilatının (BMT) 2023-cü il üzrə yüksəksəviyyəli görüşünün güclü siyasi Bəyannaməsi» adlı tədbirə onlayn qoşulan «Stop TB Partnership» təşkilatının icraçı direktoru Lüsika Ditiu vərəmlə mübarizədə dövlət dəstəyinin önəmli olduğunu, Azərbaycanın vərəmlə mübarizəyə regional və qlobal səviyyədə töhfə verə biləcəyini qeyd edib.

Azərbaycanın bu istiqamətdə bütün əsas iştirakçıları bir araya gətirə bilmək iqtidarında olduğunu söyləyən Lüsika Ditiu həmçinin deyib: «Hamımız vərəmlə mübarizəni gücləndirməyə çalışırıq. Odur ki, sentyabrda keçiriləcək görüşdə yüksək səviyyəli şəxsləri bir araya gətirmək çox önəmlidir».

Azərbaycanda vərəmli xəstələrin sayına görə vəziyyətin kifayət qədər qənaətbəxş olduğunu bildirən səhiyyə nazirinin müavini Nadir Zeynalov, bununla belə, təəssüflə deyib ki, xəstələr arasında dərmanlara davamlı formaların nisbətinə görə vəziyyət yaxşı deyil: «Bu problem tək bizim ölkəmizdə deyil, bütün dünyada mövcuddur. 2021-ci ildə vərəm əleyhinə dərmanlara davamlı formadan əziyyət çəkən 450 min yeni xəstə aşkarlanıb. Bu il iyunda Ümumdünya Səhiyyə Təşkilatı mikroblara qarşı antibakterial və göbələk əleyhinə davamlılıq problemlərinin həlli üçün prioritet elmi-tədqiqat istiqamətlərini müəyyən edib. Bu tədqiqatlar üçün 40 istiqamət seçilib və onlardan 7-si — təqribən 20 faizi sırf vərəm əleyhinə dərmanlara davamlılıq probleminə həsr olunub. Bu onu göstərir ki, vərəm əleyhinə dərmanlara rezistentlik məsələsi nə qədər aktual və önəmlidir».

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov bildirib ki, dərmanlara qarşı davamlılıq vərəmə son qoymaq üçün görülən işlərə ciddi çətinlik törədir. Bunu «bütün dünyanın problemi» adlandıran millət vəkili deyib ki, bunun ən böyük səbəbi antibiotiklərin istifadə qaydalarının və vərdişlərinin pozulmasıdır: «Bildiyiniz kimi, bu günlərdə Milli Məclisdə «Dərman vasitələri haqqında» Qanuna dəyişiklikləri nəzərdə tutan qanun layihəsi müzakirə olunur. Ölkəmizdə bu sistemin daha effektiv işləməsi üçün dərmanların əlçatanlığına və qiymətlərin optimallaşdırılmasına yönəldilmiş qanun layihəsi hazırlanıb».

R.Mahmudov bildirib ki, apteklərdə yüksək dərəcəli, son mərhələdə istifadə edilməli olan antibiotiklərin əlçatan olması vərəmin kökünü kəsməyə gedən yolda ən böyük təhlükədir və bütün ölkələr üçün həll olunması vacib problemdir.

Multisektoral görüşdə Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova öz çıxışında ötən il Azərbaycanda vərəmə yoluxanların sayında artım müşahidə olunduğunu, 2022-ci ildə ölkəmizdə 686 yeni vərəm xəstəsinin aşkarlandığını qeyd edib. Ümumilikdə, həm ilkin, həm də təkrar xəstələr arasında 1034 nəfər müalicəyə qoşulub.

İ.Axundova bildirib ki, vərəmlə xəstələnmə göstəricisi 28,4 faiz təşkil edib, onlardan 22,5 faizi ağciyər, 5,9 faizi isə ağciyərdənkənar vərəmdir: «İlkin xəstələr arasında 75 faizə qədər vərəm mikobakteriyası aşkarlayırıq, təkrar xəstələrdə bu rəqəm 93 faizə qədər təşkil edir. Ümumiyyətlə, il ərzində müalicə alan vərəm xəstələri arasında 85 faizə qədər halda vərəm mikobakteriyası aşkarlaya bilmişik».

İnstitut direktoru təəssüflə bildirib ki, dərmana davamlı vərəm Azərbaycan üçün də problemdir: «Dərmanlara davamlı vərəmdən əziyyət çəkən xəstələrin sayı ötən il ilkin xəstələr arasında 11,9, təkrar xəstələr arasında 22,6 faiz təşkil edib.

Müalicə nəticələrinə gəlincə, hələ ki, Ümumdünya Səhiyyə Təşkilatının qoyduğu hədəflərə çata bilmirik. Amma həmin hədəfə çatmaq potensialımız var. Həssas xəstələrin müalicə uğuru 82, dərmana davamlı xəstələr arasında müalicə uğuru 62 faiz təşkil edir. Vərəmdən ölüm göstəricisi isə azalır», — deyə İ.Axundova qeyd edib.

Tədbirdə həmçinin Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Soltan Məmmədov, Sədaqət Vəliyeva, TƏBİB-in strateji inkişaf departamentinin rəhbəri Yaqut Qarayeva və başqaları çıxış edərək, ölkəmizdə vərəmlə mübarizədə görülən işlərdən danışıb, hədəfə nail olmaqda birgə əməkdaşlığın vacibliyini qeyd ediblər.

Tədbir sessiyalarla davam edib. Vərəmə yoluxmuş və sağalmış Kənan Bayramov öz həyat hekayəsini danışıb, müxtəlif təşkilatların və qurumların nümayəndələri təqdimatlarla çıxış ediblər.

Tədbir zamanı QHT-lər, icmalar, ictimai xadimlər, sosial işçilər tərəfindən «Bakı Bəyannaməsi» imzalanıb. Bəyannamənin beynəlxalq QHT-lər tərəfindən də imzalanması və BMT-nin Baş Assambleyasının rəhbərliyinə ünvanlanması nəzərdə tutulur.

**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar Klinikası Gədəbəy rayonunda Akademik Zərifə Əliyevanın 100 illiyinə həsr edilmiş tibbi aksiya keçirib. Aksiyada şəhid ailələri, qazilər və aztəminatlı ailələr müayinə olunub.**

# Gədəbəydə oftalmoloji aksiyada 184 nəfər müayinə olunub

Mərkəzin Elmi-məlumat, tədris və təşkilati-metodik bölməsindən bildirilib ki, aksiya çərçivəsində 184 nəfər müayinələrdən keçib. Müayinələr əsasında presbiopiya, miopik astiqmatizm, allergik konyunktivit, quru göz sindromu və s. diaqnozlar aşkar olunub. Ehtiyacı olan şəhid və qazi ailələri eynək və dərmanla təmin edilib.

Aksiyanın keçirilməsində əsas məqsəd pasiyentlərin operativ şəkildə, vaxt itirmədən müayinə, diaqnostika və müalicə edilməsi, korluğun qarşısının alınması, görmə patologiyasının erkən aşkarlanması, göz xəstəlikləri ilə bağlı monitorinqlər aparılması, çıxarılan nəticələr əsasında problemlərin həll edilməsidir.

Müayinələr Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri Mirana Mirişova, Qafar Tağıyev, Elçin Əsgərov və tibb bacısı Aygün Mahmudova tərəfindən həyata keçirilib.

Aksiyada direktor müavini Ceyhun Nəzərli, Elmi-məlumat, tədris və təşkilati-metodik bölməsinin rəhbəri Yazgül Abdıyeva, Səyyar Klinikanın baş həkimi Elçin Həsənov, Təşkilat şöbəsinin işçi heyəti iştirak edib.

# Sona Vəlixan - 140

## *İlk azərbaycanlı qadın həkim, tibb elmləri doktoru elmi dərəcəsi alan ilk azərbaycanlı qadın*

### *...Ömrünün sonuna qədər bu amalla yaşadı, qəlblərə sevinc, gözlərə nur payladı...*

**O, dünyaya gələndə təkcə doğulduğu ailəsi deyil, talelərinə yaşamaq üçün yazılmış Rusiya, bəlkə də, elə bu dünyanın özü bütünlüklə təlatümlər içərisində idi. İnsanlar köhnə dünyanı təzəsi ilə əvəz etmək eşqi ilə alışıb yanır, yeni dünyanın onlara böyük müjdələr gətirəcəyinə inanırdılar. Həmin dövrlərdə doğma Vətənindən uzaqlarda ali təhsil alaraq elobasına dönüb, insanların sağlamlığı keşiyində durmaq arzusu ilə yaşayan İbrahim Rəhimov da yenilik tərəfdarlarının sırasında idi. İnqilab ruhlu bu gənc heç özü bilmirdi ki, atdığı bu addım onu dərin bir uçuruma aparır. O zamankı cəmiyyət üçün «etibarsız insan» sayılan İbrahim həyatın çox sınağına çəkilir, itirdikləri, bəlkə də, qazandıqlarından çox olur. Çox güman ki, taleyin ona bəxş etdikləri arasında onun yolunu davam etdirən sevimli qızı Sona ən əziz nemət idi.**

Sona İbrahim qızı Rəhimova (Vəlixan) 1883-cü il iyulun 18-də Xarkovda həkim ailəsində doğulub. O, həkimlik sənətinə hələ uşaqlıqdan maraq göstərirdi. Bu isə atası psixiatr İbrahim Rəhimovu çox sevindirirdi. Tez-tez qızı ilə bu barədə söhbətlər edir, onu daha da həvəsləndirirdi.

İsveçrənin Lozanna Universitetinə daxil olanda Sonanın 17 yaşı yenicə tamam olmuşdu. Lakin o, təhsilini axıradək burada davam etdirə bilmir, ailə vəziyyəti ilə əlaqədar olaraq Rusiyaya qayıdır və təhsilini Peterburq Qadın Tibb İnstitutunda (indiki İ.P.Pavlov adına İnstitut) başa vurur. 1908-ci ildə Sona buranı fərqlənmə diplomu ilə bitirir. Elə həmin ildə o, Peterburq Göz Xəstəxanasına (hazırkı L.L.Qrişman adına Sankt-Peterburq Oftalmologiya İnstitutuna) ordinator vəzifəsinə qəbul olunur, 1914-cü ilə qədər burada çalışır. Az sonra isə Xarkova — ailəsinin yanına dönür və bir müddət Xarkov Şəhər Göz Müalicə Xəstəxanasında ordinator vəzifəsində işləyir. 1915-1924-cü illərdə o, Xarkov Tibb İnstitutunun Patoloji anatomiya kafedrasında əvvəlcə baş laborant, sonra isə baş assistent kimi fəaliyyət göstərir. Artıq Sona xanımın sorağı Vətəninə də gəlib çatır. 1921-ci ildə onun elmi və həkimlik fəaliyyətini nəzərə alaraq Azərbaycan Dövlət Universiteti Sona xanımın ünvanına 2 teleqram göndərir. Bu teleqramlarda o, Vətənində işləməyə dəvət olunur, həmçinin Sona Vəlixanın Azərbaycan Dövlət Universitetinin Göz xəstəlikləri — oftalmologiya kafedrasının ordinatoru vəzifəsinə təsdiq olunduğu bildirilir.

Sona xanım bu təklifə sevinsə də, Azərbaycana dönməyə bir qədər tərəddüd edir.

Hər şeydən öncə, o artıq yaşa dolmuş atasından ayrılmaq istəmirdi. Lakin atası İbrahim Sonanın Bakıya qayıtmasını çox istəyirdi. Nəhayət, o, atasının təkidi ilə Bakıya gəlir və 1923-cü il dekabrın 18-dən Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayır. Bu fəaliyyətlə yanaşı, o, Rusiyada başladığı elmi axtarışlarını da davam etdirir.

1928-ci il mayın 13-də Sona xanım «Zədəli endoftalmitin patoloji anatomiyasına dair materiallar» adlı doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir və ona tibb elmləri doktoru elmi dərəcəsi verilir. Həkim-oftalmoloq Sona



İbrahim qızı Vəlixan keçmiş SSRİ məkanında Azərbaycandan belə yüksək elmi dərəcəyə layiq görülən ilk azərbaycanlı qadın idi.

1930-cu ildə yeni yaradılan Tibb İnstitutunda fəaliyyətini davam etdirən Sona xanıma 1935-ci ildə Bakıda yaranan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda Oftalmologiya kafedrasında işləmək təklif olunur və o, 1939-cu ildən bu kafedraya rəhbərlik etməyə başlayır. Həmin dövrdə Kür və Araz çaylarının hövzələri boyunca böyük bir ərazidə yaşayan əhalinin 40-50 faizi arasında traxoma xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyin səbəblərinin öyrənilməsi və ləğv edilməsi istiqamətində görülən işlərdə onun da xidmətləri böyükdür.

Sona xanım 1940-cı ildə Stokholmdan bir məktub alır. Məktubda Karolina Kral Tibbi-Cərrahiyyə İnstitutunun tapşırığı ilə Nobel Komitəsi Psixologiya və tibb sahəsi üzrə 1941-ci ildə Nobel mükafatı almaq üçün Sona xanımdan məruzə təqdim etməsini xahiş edirdi. Məruzə lazımi yoxlamadan keçməkdən ötrü 1941-ci il fevralın 1-nə kimi Nobel Komitəsinə çatdırılmalı idi. Təəssüf ki, bu məsələ həllini tapmır və onun səbəbləri hələ də sirr olaraq qalır.

1957-ci ildə Sona xanım daha bir zərbə alır. Belə ki, 1957-ci ilin mart ayında Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi Şurası Oftalmologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Sona İbrahim qızı Vəlixanın SSRİ Tibb Akademiyasının müxbir üzvlüyünə namizədliyini irəli sürür. Nədənsə, bu qərar da Elmi Şuranın protokolundan kənara çıxarılmır. Sanki hər şey təkrarlanırdı, vaxtilə atasının üzləşdiyi haqsızlıqlar Sonanın tale yazısına çevrilir, onun həyatına kölgə salırdı. Səbəblər bəlli olmasa da, nəticə bəlli idi, bu azərbaycanlı qızını mənən, ruhən sındırmaq, əymək, fiziki cəhətdən yox etmək istəyənlər hər şeyə əl atırdılar. Lakin nə bu qadağalar, nə təzyiqlər onun əzmini qıra bilməmiş, iradəsini sarsıtmamışdı.

Sona Vəlixanın rəhbərliyi ilə 1939-1971-ci illərdə 2 doktorluq və 18 namizədlik dissertasiyası müdafiə olunmuşdu. Onun yazdığı 2 monoqrafiya və 50-dən artıq elmi əsərdə oftalmologiyanın müxtəlif problemləri açıqlanırdı. İstər peşəsində, istərsə də elmi fəaliyyətində atası İbrahimdən, professor L.L.Qrişmandan aldığı tövsiyələrə əməl etmiş, onları



öz həyat idealına çevirmişdi. Onun bir amalı vardı: insanlığa xidmət etmək...

Yüksək ixtisaslı oftalmoloq olmaqla bərabər, Sona Vəlixan istedadlı patohistoloq idi. Gözün patoloji anatomiyasını dərin bilən istedadlı alim göz xəstəliklərində təsadüf olunan bir çox məsələlərin aydınlaşdırılmasında öz bilik və qüvvəsini heç vaxt əsirgəmirdi. Ömrünün yarısından çoxunu pedaqoji işə sərf edən alim istər özünə, istərsə də müdavimlərinə qarşı həmişə tələbkar idi, mühazirələrini dərin, mənalı və keyfiyyətli qurardı. O, oftalmologiyanın ən çətin sahələrini belə tələbələrinə, yetirmələrinə sadə, başa düşüləcək şəkildə aydınlaşdırmağı bacarırdı.

Bu səbəbdən də hazırladığı kadrların dərin minnətdarlığını, hörmətini qazanmışdı Sona xanım.

Bu sadə, son dərəcə təvazökar azərbaycanlı qızının fədakar zəhməti, xalqı qarşısında xidməti dövlət tərəfindən də yüksək qiymətləndirilmişdi. Belə ki, o, «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüş, «Qızıl ulduz» ordeni, Almaniya üzərində qələbəyə görə», «Əməkdə fərqlənməyə görə» və s. medallarla, həmçinin «Tibb əlaçısı» nişanı ilə təltif olunmuşdu.

1982-ci ildə 99 yaşında vəfat edən Sona xanım Vəlixan mənalı ömür yaşadı, özündən sonra bir məktəb yadigar qoydu...

Hazırda Azərbaycan Təbabəti Muzeyinin stend və vitrinlərində görkəmli alim Sona Vəlixanın həyat və fəaliyyətini əks etdirən eksponatlar nümayiş olunur.

**Sevinc MANİYEVA,**
**Azərbaycan Təbabəti Muzeyinin direktoru**

# Bütün ölkə ərazisində könüllü qanvermə aksiyası təşkil edilib

**Səhiyyə Nazirliyi Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə ölkəmizin bir çox şəhər və rayonlarında könüllü qanvermə aksiyası təşkil edib. Aksiya Məhərrəm ayının 10-u — Aşura günü ilə əlaqədar keçirilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, aksiya Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının Bakı şəhəri və müxtəlif regionlarda yerləşən bölmələri tərəfindən təşkil olunub. Bakıda qanvermə aksiyaları paytaxtın 8 məscid və ziyarətgahında baş tutub. Eyni zamanda, müxtəlif şəhər və rayonlarında, o cümlədən Gəncə, Lənkəran, Mingəçevir, Sumqayıt, Şəki, Şirvan, Bərdə və Qubada qan ianə etmək üçün məntəqələr yaradılıb.

Qan verən şəxslər ilk olaraq həkim müayinəsindən keçiriliblər. Onların yaşının, çəkisinin, fiziki sağlamlığının qan verə bilmək üçün uyğunluğu yoxlanıb, eləcə də təzyiqi və bədən hərarəti ölçülüb, bundan sonra vətəndaşın qan verib-verə bilməyəcəyi müəyyənləşdirilib.

Aşura günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən də könüllü qanvermə aksiyaları keçirilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, səyyar qanvermə məntəqələri Naxçıvan şəhərində 3 məsciddə, həmçinin bir sıra Rayon Mərkəzi Xəstəxanalarında, kənd həkim ambulatoriyalarında, kənd məscidi və ziyarətgahlarda yaradılıb.

Aksiya zamanı sanitar-gigiyena qaydalarına ciddi əməl edilib, donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib.

Tədarük edilən qan infeksion xəstəliklərə görə yoxlanır və müvafiq qurumlara təhvil verilir.

# İyun ayında 32 aptekdə yoxlamalar aparılıb

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində nəzarət yoxlamaları aparır.**

Mərkəzdən verilən məlumata görə, bu il iyunun 1-dən 30-dək Bakı şəhəri üzrə 27, rayonlar üzrə 5 aptek olmaqla 32 aptekdə yoxlamalar həyata keçirilib.

Aparılan yoxlamalar nəticəsində əczaçılıq müəssisələrindən 7 adda 40 qutu dərman müsadirə edilib, 2 aptekdə nöqsanlar aşkarlanaraq protokol tərtib edilib.

## UNITED: profilaktik tədbirlər görülməsə, 2035-ci ilə qədər vərəm təxminən bir milyon insanın həyatına son qoya bilər

**UNITED-in (səhiyyə sahəsində innovasiyalar üzrə BMT-nin təşəbbüsləri) ekspertləri xəbərdarlıq ediblər ki, vərəmə yoluxmuş kontaktlar izlənilməsə və xəstəliyin profilaktikası ilə bağlı tədbirlər görülməsə, 2035-ci ilə qədər bu xəstəlik təxminən bir milyon insanın həyatına son qoya bilər.**

BMT-nin mütəxəssisləri israrla bildirirlər ki, yoluxmuş insanların gündəlik təmaslarının aşkar edilməsi və vərəmin profilaktik müalicəsinin aparılması üzrə kompleks strategiyanın reallaşdırılması iqtisadi nöqteyi-nəzərdən əlverişlidir.

AZƏRTAC BMT-nin Xəbərlər xidmətinə istinadla xəbər verir ki, yaxın 12 ildə bu tədbirlər xəstəliyə yoluxmuş insanların təmasda olduğu şəxslər və İİV ilə yaşayan insanlar arasında ölüm hallarının sayını 35 faiz azaltmağa imkan verəcək.

UNITED, ABŞ-dakı Con Hopkins Universiteti və «Aurum» İnstitutunun birgə apardığı tədqiqat göstərib ki, bu strategiya sayəsində 2035-ci ilə qədər 850 min nəfər xilas edilə bilər. 15 yaşdan kiçik şəxslərin mövcud aşağı aşkarlama nisbətlərini nəzərə alaraq demək olar ki, bu insanların əksəriyyətini uşaqlar təşkil edə bilər. Əldə olunan məlumatlara görə, kompleks strategiyanın tətbiqindən imtina edilməsi 2035-ci ilə qədər təxminən bir milyon ölüm halına səbəb ola bilər.

Bu məlumatlar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyəsinə uyğundur.

Həmin tövsiyədə deyilir ki, vərəmin profilaktik müalicəsi ən yüksək yoluxma riskinə məruz qalan insanlara təqdim olunmalıdır. Buraya İİV-ə yoluxmuş şəxslər və vərəm xəstələri ilə təmasda olan şəxslər daxildir. Hər il 10,6 milyon yeni yoluxma hallarının əhəmiyyətli hissəsi bu qrupa təsadüf edir. Bütün bu hallar üzrə profilaktik tədbirlər və müalicə təsirlidir.

Vərəmin qarşısı alına və müalicə oluna bilir, buna baxmayaraq, o, dünyada ən ölümcül infeksiya olaraq qalır. ÜST-nin məlumatlarına görə, dünya əhalisinin təxminən dörddə biri vərəmə yoluxub və ağır xəstəliklərə səbəb olan aktiv xəstəliyin inkişafetmə riskinə məruzdur.

UNITED və təşkilatın partnyorları tərəfindən aparılmış bir sıra danışıqlar nəticəsində 2017-ci ildən sonra müalicə qiymətləri 70 faizdən artıq enib. Yeni daha qısa müalicə sxemləri həm daha əlçatan olur, həm də vərəm infeksiyasının aktiv xəstəliyə çevrilməsindən əvvəl onu müalicə etməyə imkan verir.

Sentyabrda BMT-nin vərəm üzrə ikinci yüksək səviyyəli müşavirəsi keçiriləcək. Bu forumun ərəfəsində UNITED ölkələri maliyyə öhdəlikləri də daxil olmaqla, vərəmlə mübarizə üzrə əlavə öhdəliklər götürməyə çağırıb.

**Hər il Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regionunun təxminən 1,4 milyon sakini ekoloji problemlərlə bağlı səbəblərdən həyatla vidalaşır.**

Onların yarısının ölümünə səbəb havanın çirklənməsi olur. Bu ölüm hallarının qarşısını almaq mümkündür.

AZƏRTAC BMT-nin saytına istinadla xəbər verir ki, bu barədə ÜST-nin Avropa bürosunun başçısı Hans Klüge Budapeştdə keçirilən tematik konfransda çıxışında bəyan edib.

Forumda Avropa və Mərkəzi Asiyanın 46 ölkəsindən, eləcə də vətəndaş cəmiyyətləri və gənclər təşkilatlarından

## Hans Klüge: «Üçqat ekoloji böhran erkən ölümə səbəb olur»

olan təmsilçilər toplanıb. Məqsəd özündə üçqat ekoloji böhranı — iqlim dəyişməsi, ətraf mühitin çirkləndirilməsi və biomüxtəlifliyin itirilməsini təmsil edən eksiztensional təhlükəyə qarşı mübarizədə inkişafı aktivləşdirməkdir.

«Ötən il Avropada bütün müşahidələr tarixi ərzində ən isti yay ayında ekstremal istilər ucbatından 20 mindən çox insan həyatını itirdi. Regionun 77 milyon sakini üçün içməli su hələ də əlçatan deyil», — deyə H.Klüge xatırladıb.

Onun sözlərinə görə, bu problemlərin həlli istiqamətində irəliləyiş kifayət qədər sürətli templərlə getmir, bu isə 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində hədəflərə nail olmanı təhlükə altına alır. ÜST-nin Avropa bürosunun başçısı bütün tərəfləri səyləri gücləndirməyə səsləyərək deyib: «Hökumətlər hərəkətə keçməlidir. Tərəfdaşlar hərəkətə keçməlidir. Hər birimiz hərəkətə keçməliyik».

H.Klüge bu və digər problemlərin həllinə Avropa regionu əhalisinin üçdəbirini təşkil edən gəncləri cəlb etməyə çağırıb.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### «Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu» PHŞ

*Ortopediya üzrə elm şöbəsi:*
Böyük elmi işçi, travmatoloq-ortoped t.ü.f.d. - 1,0 müsabiqə - 2,0 vakant
Kiçik elmi işçi, travmatoloq-ortoped - 1,0 müsabiqə

*Travmatologiya üzrə elm şöbəsi:*
Böyük elmi işçi, travmatoloq-ortoped t.ü.f.d. - 1,0 müsabiqə - 1,0 vakant
Kiçik elmi işçi, travmatoloq-ortoped - 1,0 müsabiqə - 3,0 vakant

*Əl cərrahiyyəsi və yaralar üzrə elm şöbəsi:*
Kiçik elmi işçi, travmatoloq-ortoped - 3,0 müsabiqə - 1,0 vakant

*Uşaq travmatologiya və ortopediya üzrə elm şöbəsi:*
Böyük elmi işçi, travmatoloq-ortoped t.ü.f.d. - 1,0 vakant
Kiçik elmi işçi, travmatoloq-ortoped - 2,0 vakant

*Artroplastika və Artroskopiya üzrə elm ştatı:*
Şöbə müdiri, travmatoloq-ortoped t.ü.f.d. - 1,0 vakant
Böyük elmi işçi, travmatoloq-ortoped t.ü.f.d. - 1,0 vakant
Kiçik elmi işçi, travmatoloq-ortoped - 1,0 müsabiqə - 2,0 vakant

*Metodiki-təşkilat bölməsi:*
Kiçik elmi işçi - 1,0 vakant

*Elmi-tibbi informasiya bölməsi:*
Şöbə müdiri - 1,0 vakant
Kiçik elmi işçi - 1,0 müsabiqə

*Ünvan: A.Səhhət küç., 32*
*Telefon: 440-33-86*

### «Elmi-Tədqiqat Pediatriya İnstitutu» PHŞ

Rentgen-texnik - 1.0
*Ünvan: B.Bağırova küç., 15*
*Telefon: 595-21-00*

### «Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 4.0
*Ünvan: Şərifzadə küç.,196*
*Telefon: 432-12-14*

### Milli Onkologiya Mərkəzi

*Ümumi onkologiya bölməsinə:*
Kiçik elmi işçi - 1.0
*Ünvan: H.Zərdabi küç., 79b*
*Telefon: 537-08-11*

### «Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 7.0
*Ünvan: A.Hüseyn küç., 69/71*
*Telefon: 455-44-79*

### «Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu» PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 3.0
Anestezist - 3.0
Laborant - 2.0
Rentgen-texnik - 2.0
*Ünvan: E.Süleyman küç., 2514*
*Telefon: 421-50-91*

### Mingəçevir Tibb Kolleci

Uşaq xəstəlikləri fənni üzrə müəllim - 1.0
Yoluxucu xəstəliklər fənni üzrə müəllim - 1.0
Patologiya fənni üzrə müəllim - 1.0
Hərbi tibbi hazırlıq və fəlakətlər təbabəti fənni üzrə müəllim - 1.0
Nutrisiologiya fənni üzrə müəllim - 1.0
*Ünvan: Naxçıvan küç., 25*
*Telefon: (02427) 6-18-69*

### Ağdam Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Tibbi-statistik - 1.0
Həkim-epidemioloqun köməkçisi - 1.0
*Ünvan: Quzanlı qəsəbəsi*
*Telefon: (050) 345-35-29*

### «Respublika Gigiyena və Epidemiologiya Mərkəzi» PHŞ

Sanitar-feldşer - 1.0
Feldşer-laborant - 3.0
*Ünvan: A.Manaf küç., 22*
*Telefon: 422-35-52*

### Lənkəran Şəhər Narkoloji Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Hacı Zeynalabdin Tağıyev küç., 202a*
*Telefon: (02525) 4-24-89*

### «Respublika Narkoloji Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 6.0
*Ünvan: Axund Şeyx Hüseyn küç.,71*
*Telefon: 558-75-16*

### Biləsuvar Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0
*Ünvan: 28 May küç., 19*
*Telefon: (02529) 5-11-14*

### Respublika Leproz (Cüzam) Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Umbakı qəsəbəsi*
*Telefon: 446-80-39*

### «Respublika Psixiatriya Xəstəxanası» PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Psixoloq - 2.0
Sosioloq - 2.0
*Ünvan: Şeyx Hüseyn küç., 69/71*
*Telefon: 455-10-91*

### «Bakı Şəhər Dezinfeksiya Mərkəzi» PHŞ

Təlimatçı-dezinfektor- 5.0
Feldşer - 1.0
Tibbi-statistik - 1.0
Feldşer-laborant - 1.0
Sanitar-feldşer - 1.0
*Ünvan: F.İbrahimbəyov küç., 19/21*
*Telefon: 594-70-08*

Baş redaktor: N.MƏCİDOVA
Baş redaktorun müavini: S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi: Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9350


Santen
LEKROLIN®
Natrium kromoqlikat 40 mq
Allergik konyuktivitdən müdafiə!
İstifadəsinə göstərişlər:
Allergik konyuktivit
Allergik keratit
Keratokonyuktivit
Gözün selikli qişasının allergik reaksiyaları əlaqədar qıcıqlanması (ətraf mühit, kosmetik vasitələr, bitki tozcuqları və s.)
Faydaları:
Allergik reaksiyanın həm erkən, həm də gec mərhələlərini inhibə edir
Histaminin sərbəst buraxılmasının qarşısını alır
İltihabı aradan qaldırır
Qızartı və qaşıntını azaldır
Tövsiyə olunan doza :
Böyüklərə və 4+ uşaqlara – hər konyuktival kisəciyə sutkada 2 dəfə 1-2 damcı istifadə edilir.
4 yaşa qədər uşaqlar – yalnız həkimin məsləhəti ilə.
Flakon açılandan sonra 28 gün ərzində istifadə edilir.
Kontak linzaları 15 dəq. keçdikdən sonra istifadə etmək olar.


Krewel Meuselbach
VALOKORDİN
Fenobarbital – 18.4 mq
Etilbromizovalerianat – 18.4 mq
Köməkçi maddələr: mayaotu yağı, nanə yağı, etil spirt, təmizlənmiş su
ВАЛОКОРДИН®
Nə üçün Valokordin?
Sakitləşdirici, spazmolitik və yüngül yuxugətirici təsirə malikdir.
Mərkəzi sinir sisteminin həyəcanını azaldır.
Təbii yuxunun başlamasını asanlaşdırır.
İstifadəsinə göstərişlər :
Sinir mənşəlli ürək ağrıları
Yüksək sinir oyanıqlığı və psixosomatik pozulmalar
Narahatlıq və nevrozluq
Yuxunun pozulması və vegetativ oyanıqlıq
İstifadə qaydası və dozası : yeməkdən əvvəl, az miqdarda maye ilə qəbul edilir. Doza fərdi olaraq təyin edilir.
Yetkinlərə adətən gündə 3 dəfə 22-30 damcı təyin edilir.
Həkim təyinatı olmadıqda gündə 3 dəfə 15-20 damcı bir qədər maye ilə yemək vaxtı qəbul edilir.
Yuxusuzluq zamanı dozanı 30 damcıya qədər artırmaq mümkündür.
Qeydiyyat vəsiqəsi
DV 22-01245


ДОЛФИН®
dalğası ilə rahat nəfəs al!
KRVİ və qrip zamanı rinit
Sinusitlər ( haymorit, frontit, etmoidit)
Allergik rinit
Atrofik rinit
Vazomotor rinit
Adenoidit
Hipertrofik rinit
Burun boşluğu və burunətrafı ciblərin əməliyyata hazırlığı və əməliyyatdan sonra reabilitasiyası
İtburnu - kapilyarları möhkəmləndirir, regenerasiya edici təsir göstərir
Biyan- Allergiya əleyhinə iltihabəleyhinə, virusəleyhinə və immunomodulyator təsir göstərir
Qalit- antiseptik təsir göstərir
Burun boşluğunun həcmli yuyulmasını təmin edir, virus, mikroblardan və selikdən tamamilə təmizləyir.
Əlavə komponentlərə görə iltihab və şişkinliyi aradan qaldırır.
İstifadəsi rahatdır. Burnu yuyarkən təzyiq tənzimlənə bilir, məhlulun temperaturu bədən temperaturuna uyğunlaşdırılır.
Gigiyenik seritifikat
Dolfin (Uşaqlar üçün) - Seriya№ AZ 031 RSK 13384
Dolfin (Böyüklər üçün) - Seriya№ AZ 031 RSK 13385
Dolfinlə burun yuyulmasına dair video məlumat


Santen
GECƏ VƏ GÜNDÜZ NƏMLƏNDİRMƏ
KATİONORM
Gözlərin nəmləndirilməsi üçün kationlu emulsiya
Gözyaşının hər üç qatının bərpasına kömək edir
Konservantsızdır
KONTAKT LİNZALARIN ÜZƏRİNƏ DAMCILATMAQ OLAR
Tibbi məmulatdır
GECƏ NƏMLƏNDİRMƏ
OFTAGEL
Uzun müddətli nəmləndirmə üçün, o cümlədən gecə saatlarında
Tərkibində yüksək konsentrasiyalı karbomer var 0.25%
Dərman preparatıdır
Qeydiyyat vəsiqəsi
DV №18-00657


FARCLOBENT
CREAM
Betametazon • Klotrimazol • Gentamisin
unikal effekt!
Antibakterial, antifunqal və iltihab əleyhinə təsir göstərir
Dəri xəstəliklərində və ginekoloji praktikada geniş tətbiq imkanı var
FARCLOBENT CREAM 30g
Manufactured by TAI GUK PHARM. CO.,LTD. Korea.
HB Co LTD
CLEANVAG
METRONIDAZOLE – NYSTATIN - NEOMYCIN - LIDOCAINE - DEXAMETHASONE
Qadın sağlamlığının yeni qayğısı!
İdeal kombinasiya
5 təsir
CLEANVAG
Laboratorios LAFEDAR


AVROMED
Dərman vasitələrinin 24 saat ərzində ölkədaxili çatdırılması
• Beynalxalq əczaçılıq brendləri
• Xarici və yerli istehsalçıların parafarmasevtik məhsulları
• Klinikalar və evlər üçün peşəkar tibb avadanlığı
• Tibbi cihazlar
23.000+
Məhsulun çeşidi
9+
Regional Ofis
2.000+
Yerli aptek təchizatı
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az